# BİR ZƏNGİN ACISI...



■ Flora XƏLİLZADƏ
*əməkdar jurnalist*

Ömrümüzün qayğılarla ütüldüyü, ziddiyətli zamanın gərdişləri, bir də nə danım, şəhər həyatının özünəməxsus "qanunları" bəzən dost-tanışdan, qohum-əqrəbadan adamı elə xəbərsiz edir ki... Çox hallarda qapıbir qonşumuzun problemlərindən belə xəbərimiz olmur. Heyif deyil kənd, heç telefona da ehtiyac yoxdur. Hamı bir-birinin dərdindən, sevincindən xəbərdardır. Nə isə... Son vaxtlar haqq dünyasına qovuşmuş bəzi tanışların, dostların əbədi yoxluğundan az qala bir ildən sonra xəbər tuturam. Qəfil acı xəbərlərsə varlığımı doğruyur, ruhumu incidir, dünyanın faniliyini bilə-bilə inanmaq istəmirəm eşitdiklərimə. Bilmirəm, özümü qınayım, yoxsa biganəlik ovqatına bürünmüş bu həyatı...



Tanımadığım nömrədən gələn zəngdə eşitdiyim səsin doğmalığı dərhal sahibini bəyan etdi. Asya xanım idi. Böyük hörmət və etiramım olan Vaqif müəllimin həyat yoldaşı. Dəfələrlə Türkiyədə görüşmüşdük. Qayğı və diqqət görmüşdüm. Vaqif müəllim Vətənə dönəndə həmişə məni axtarar, iş yerimə gələrdi. Özünə məxsus da, maraqlı hədiyyələri olardı. Bir il idi ki, xəbərim yoxuydu. İş yerimi dəyişdiyimdən, fikirləşirdim ki, məni tapa bilmir. Telefonuna da zəng çatmırdı... Asya xanımın bu zəngi məni çox sevindirdi, nəhayət əlaqə yarandı, fikirləşdim. Amma onun xahişi mənə qəribə gəldi. "İstəyirəm Vaqifdən bir məqalə yazasan... Səsinin titrəməsi məni üşütdü, heç özüm də bilmirəm ki, niyə belə sual verdim: " Nə olub ki, Vaqif müəllim özü niyə demir?" "Vaqif keçən yay rəhmətə getdi..." Qəhərli səsin qəm yükü məni elə sarsıtdı ki...

Yadima 1996-cı il düşdü. Azərbaycanın tanınmış ziyalı xanımları və qadın millət vəkillərindən ibarət böyük bir heyət Fatma Abdullazadənin rəhbərliyi ilə Türkiyəyə səfər etmişdi. Mən də jurnalist kimi həmin tərkibdə var idim. On beş günə yaxın çəkən bu ziyarətimizdə demək olar ki, Türkiyənin müxtəlif şəhərlərində, rəsmi görüşlərdə olduq. Tükiyə Cumhuriyyətinin o vaxtkı Prezidenti Süleyman Dəmirəl, baş nazir Tansu Çillərlə keçirilən görüşlərimiz heç yadımdan çıxmır. Vaqif Qasımov həmişə bizimlə idi. O zaman həmyerlimiz Türk Standardlaşdırma Təşkilatında (TSE) baş müşavir vəzifəsində çalışırdı.Vaqif Qasımov həm də həmin dövrdə Ankarada yerləşən Türk Dövlətləri Bölgələrarası Standartlaşdırma Birliyinin (BASB) baş katibi olmuşdur. Soydaşımızın qardaş ölkədə böyuk hörməti və nüfuzu var idi. Əslində Vaqif Qasımov çox çalışqan və dürüst adam idi. Bu səbəbdən də Vətənoğlumuzu həm çox sevir, həm də müəyyən işləri məhz ona etibar edirdilər. Vaqif Qasımov Sankt- Peterburqda Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Məclisində müşahidəçi, İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Parlament Assambleyasında (KEİPA) isə Azərbaycan Milli Məclisinin təmsilçisi olmuşdur.

Azərbaycan Nazirlər Kabinetinin tövsiyəsiylə 1998-ci ilin mayında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin və Avrasiya İqtisadi Zirvələrinin Baş Katibi vəzifəsinə seçilmişdir. Vaqif Qasımov Avrasiya ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsində geniş dünyagörüşü, dərin texniki savadı, böyük təcürbəsi ilə mühüm xidmətlər göstərmişdir. Səmərəli fəaliyyətinə görə Mərmərə Qrupu Vəqfi tərəfindən " Zirvələrin adamı" adına layiq görülmüşdür. Azərbaycanla Türkiyə arasında münasibətlərin qüvvətlənməsində mühüm rol oynadığından Vaqif Qasımov qardaş ölkənin Bilecik şəhərinin fəxri vətəndaşı adına layiq görülmüşdür.

Əlbəttə, Vaqif müəllim bu şərəfli zirvələrə yüksələnə kimi canı qədər sevdiyi Vətənində də çox vacib və gərəkli əməllərin sahibi olub. Zəngin bioqrafiyası və həyatının mənalı məqamlarını əks etdirən illərin əksəriyyətində unudulmaz qəhrəmanımızın gərgin əməyi, yuxusuz gecələri iz salıb. Oxucularımız onu daha yaxından tanısın deyə bəzi faktları diqqətə çatdırmağı özümə borc bildim. Vaqif Qasımov 1944-cü ildə Şəki şəhərində anadan olmuşdur. Orta məktəbi doğma şəhərdə bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutunun neft-mexanika fakültəsinə daxil olub. Ali təhsilli mütəxəssiz kimi Azərbaycan Elmi- Tədqiqat Neft Maşınqayırma İnstitunda müxtəlif vəzifələrdə- mühəndis, kiçik və böyük elmi işçi, bölmə müdiri kimi çalışmışdır. Eyni zamanda aspirantura bitirən Vaqif Qasımov bu dövrdə bir sıra elmi-tədqiqat işlərinin, neft-mədən avadanlıqlarının layihələrinin rəhbəri və məsul icraçısı olmuş, özünü savadlı mühəndis və elmi işçi kimi təsdiqləyə bilmişdir. İlləri bir-birindən uğurlu gələn Vaqif Qasımovun təhsil sahəsi genişlənmiş, Daşkəndə oxumuş, elmi iş müdafiə etmiş, müxtəlif məsul vəzifələrdə və ali məktəbdə çalışmışdır. 1992-ci ildə Milli Məclisin üzvü seçilmişdir. Vaqif Qasımovun neft maşınqayırması, standartlaşdırma və metrologiya sahələrindəki bir sira kitab və məqalələri, ixtira və səmərələşdirici təklifləri, fikir təzəliyi və yüksək peşəkarlığı ilə fərqlənirdi.

Bu yazdıqlarım Vaqif müəllimin iş həyatından, elmi fəaliyyətindən, yaradıcılığından nümunə gətirdiyim cüzi faktlardır. Əslində onun həyat və fəaliyyətinin çox dərin və geniş araşdırılmasına ehtiyac var. Alim, müəllim, tədqiqatçı, ixtiraçı, tərcüməçi (neft maşınqayırması, standartlaşdırma və metodologiya sahə-



lərindəki sənədləri ilk dəfə Vaqif Qasımov Azərbaycan dilinə tərcümə edərək sistemləşdirib-F.X.) deputat, diplomat, məmur və nəhayət vətəndaş kimi onun səciyyəvi xüsusiyyətləri bir məktəb idi. Məktəbdən həm öyrənir, həm də öyrədirlər.

Vaqif Qasımovun başlıca məziyyəti isə onun insanlıq xüsusiyyətləri idi. Mehriban və səmimi olmağı onu tanıyanlara sevdirmişdi. Elə sadə təbiəti var idi ki... İndi onun bioqrafiyası ilə maraqlananda inanmağım gəlmədi ki, bu bizim Vaqif müəllimdi. Ümummilli lider Heydər Əliyev tərəfindən dəyərləndirilən, hələ Süleyman Dəmirəllə dostluğu... Yadımdadı, "Yolum düşə Zəngəzura" kitabımı Süleyman Dəmirələ çatdırdıqdan sonra mənə zəng edərək onun təşəkkürünü bildirdi. Həmin kitabda Süleyman Dəmirəl haqqında maraqlı fakt var idi. Hətta məni Türkiyəyə dəvət də etmişdilər. Vaqif Qasımovun daxili dünyası çox zəngin idi. Belə şəxsiyyətlər heç zaman unudula bilməzlər. Hərdən Şəki ləhcəsində şirin danışmağı da var idi. Ürəyi istəyəndə belə edərdi. Bilmirəm, niyə bunu xatırladım.

Vaqif müəllim barəsində keçmiş zamanda danışmaq mənim üçün çox ağırdı. Amma neyliyəsən ki, həyatın bu ağır hökmünə tabesən. Asya xanımın qəfil zəngi qəlbimdə acılar yaratsa da ,Vaqif müəllimin işıqlı əməlləri sanki bir təskinlik gətirdi. Xalq üçün yaşayanlar, yaradanlar heç vaxt unudula bilməz. Vaqif Qasımov mənalı və şərəfli bir ömür yaşadı. Vəfalı ömür-gün yoldaşı, iki övladı, dostları, tələbələri onu həmişə məhəbbətlə, ehtiramla anacaqlar. Ruhun şad olsun, əziz Vaqif Qasımov!..